# Vətənpərvər gənclər Azərbaycana nələr qazandırır...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

**Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi problemi bəşər cəmiyyətinin inkişafının bütün mərhələlərində aktualdır. Hazırda cəmiyyətimizin həyatının bütün sahələrində baş verən köklü dəyişikliklərlə əlaqədar bu məsələ xüsusi əhəmiyyət kəsb edir.**



Vətənpərvərliyin məzmunu əsas etibarı ilə vətən, doğma yurd anlayışlarını əks etdirir ki, bu da bir tərəfdən insanın doğulduğu torpağa təbii bağlılığından, digər tərəfdən də konkret cəmiyyətin siyasi, iqtisadi və digər xüsusiyyətlərindən irəli gəlir.

### Vətənpərvərlik sosial-mənəvi dəyərdir

Müasir şəraitdə vətənpərvərlik məzmununun mühüm xüsusiyyətləri bunlardır: kollektivizmlə birləşdirildikdə vətənpərvərliyin şəxsi əhəmiyyətinin gücləndirilməsi; vətənpərvərliyin təkcə gələcəyə deyil, həm də bu günə yönəldilməsi; beynəlmiləlçiliklə vəhdətdə milli şüurun inkişafı; vətənpərvərliyin sosial-mənəvi dəyərlər kateqoriyasına aid edilməsini şərtləndirən əsas anlayış kimi "Vətən" anlayışının müəyyənləşdirilməsi.

Vətənpərvərlik sosial-mənəvi dəyərdir, şəxsiyyətin sosial-mənəvi yönümünün tərkib hissəsidir. Təzahür səviyyəsindən asılı olaraq vətənpərvərlik aşağıdakı kimi qəbul edilə bilər: mənəvi və ya siyasi prinsip kimi; mənəvi hiss, yəni emosional səviyyə; inteqrativ əxlaqi keyfiyyət, davranış səviyyəsi. Bütün bunlar o anlama gəlir ki, vətənpərvər vətənini sevən, torpağına, xalqına sədaqətli, işi ilə xeyir gətirməyə çalışan insandır. Vətənpərvərlik tərbiyəsinin məqsədi vətənini sevən, ona sadiq qalan, əməyi ilə ona xidmət etməyə, maraqlarını qorumağa hazır olan inanclı vətənpərvər yetişdirməkdir. Gənclərin vətənpərvərlik tərbiyəsinin vəzifələri bu mənada aşağıdakılardır: vətənpərvərlik hisslərinin inkişafı; vətənpərvər xarakterli baxış və inancların formalaşması; vətənpərvərlik fəaliyyətinə müsbət münasibətin formalaşdırılması; vətənpərvər xarakterli müstəqil fəaliyyət üçün zəruri olan praktiki bacarıqların formalaşdırılması. Deməli, bu məsələ əslində, kompleks xarakter daşıyır. Azərbaycanda, ümumiyyətlə, dünyanın hər bir ölkəsində mövcud sosial-iqtisadi vəziyyət gənclərin vətənpərvərlik tərbiyəsi məsələsinə təsir edir. Bu prosesin əsassəbəblərindən biri gənclər arasında məzmunca deyil, əlçatanlığı, demokratikliyi, ifadə və fəaliyyət azadlığı ilə diqqəti cəlb edən kollektiv asudə vaxt növlərinin populyarlığının təmin olunmasıdır. Mədəniyyət müəssisələrində bədii özfəaliyyət dərnəklərinin, maraq klublarının yaradılması gəncləri mədəni və asudə vaxtlarının səmərəli təşkilinə cəlb etməyə, vətənpərvərlik tərbiyəsinə, valideynlərə, xalqına, yeni yoldaşlarına və dostlarına münasibətə təsir edən kommunikativ mühitin yaradılmasına imkan verir. Deməli, vətənpərvər nəsil üçün bu faktorlara daim diqqət edilməlidir. Belə hallarda gənc nəslin məlumatlılıq səviyyəsi yüksəlir. Həmçinin demokratikləşmə prosesləri və çoxpartiyalı sistemin yaranması gənc nəsil tərəfindən vətənpərvərliyin mahiyyətinin dərk edilməsinə müsbət təsir edir. Lakin vətənpərvərliyi konkret cəmiyyətin müəyyən sosial-siyasi və iqtisadi xüsusiyyətlərinə görə yalnız ictimai-tarixi hadisə kimi nəzərdən keçirmək kifayət deyil. Gənclər arasında yuxarıda göstərilən amillərdən müəyyən dərəcədə asılı olmayaraq formalaşan və insanın mənəvi həyatının müəyyən təbəqələrini səciyyələndirən "təbii" vətənpərvərlik əsaslarının mövcudluğunu inkar etmək mümkün deyil. Doğma torpağa, yurda məhəbbət, dil, öz xalqı, adət-ənənələrə hörmət və sair də vətənpərvərliyin formalaşmasında mühüm rol oynayır. Düzdür, sosial dəyərlərin şəxsi dəyərlərə çevrilməsi fərdin özünün aktiv fəaliyyəti əsasında həyata keçirilir. Amma istənilən halda bu gün ölkə gənclərinin mütləq əksəriyyətində milli vətənpərvərlik ruhunun yüksək səviyyədə olduğu faktdır. Gənclərə diqqət və qayğının dövlət siyasətinin əsas tərkib hissinə çevrilməsi də onlara olan etimaddan irəli gəlir.

### Azərbaycan gənclərində torpaq, vətən sevgisi çox yüksəkdir

O da faktdır ki, vətənpərvərlik həm də obyektiv və subyektiv dəyərdir. Obyektiv dəyər kimi vətənpərvərlik təməlində yaxşı, doğru, ədalətli məqamlar duran bir fenomen kimi qəbul edilir. Subyektiv dəyər kimi ictimai şüurda və mədəniyyətdə təsbit olunmuş normativ ideyaları ifadə edir. Bunlar fonunda vətənpərvərliyin məzmununun müəyyən edilməsində mühüm məqam onun şəxsi əhəmiyyəti ilə kollektivist mahiyyəti arasında əlaqənin gücləndirilməsidir.

Vətənə məhəbbət ən yüksək mənəvi hiss kimi cəmiyyətin, Vətənin ehtiyaclarının fərdin öz ehtiyaclarına çevrilməsini şərtləndirir. Vətənpərvərlik, kollektivizm kimi, şəxsi və sosial məqsədlərin birliyini, müxtəlifliyini, əməkdaşlığı və insanların qarşılıqlı əlaqəsini özündə birləşdirir. Bu, fərdin təkcə öz "mən"inə deyil, həm də özündən kənarda, digər insanlara diqqətini müəyyən edir ki, bu da qarşılıqlı əlaqə, faydalı olmaq, rəğbət bəsləmək istəyi ilə ifadə olunur. Bunun təzahürü də insanın öz vətənpərvərlik borcunu dərk etməsi və yerinə yetirməsidir. Müasir şəraitdə insanın, vətəndaşın ictimai və şəxsi maraqlarının vəhdəti bu anlayışın məzmununda dəyişməz olaraq qalır. Yuxarıda deyilənləri nəzərə alaraq, vətənpərvərlik anlayışının məzmununa aşağıdakı komponentlərin daxil edilməsi qanunauyğundur: vətənə, doğma torpaqlara, doğma dilə məhəbbət; öz vətəninin keçmişinə, xalqının adət-ənənələrinə hörmət, vətənin tarixini bilmək, ölkə qarşısında duran vəzifələri və vətənpərvərlik borcunu dərk etmək; başqa xalqlara, onların adət və mədəniyyətinə hörmət, irqi və milli düşmənçiliyə dözümsüzlük; vətənin şərəf və ləyaqətini gücləndirmək arzusu, orduya hörmət və vətəni müdafiə etməyə hazır olmaq; vətənin mənafeyinə xidmət etməyə hazır olmaq, şəxsi və ictimai maraqların vəhdəti ilə əmək fəaliyyətində fəal və şüurlu iştirak. Bunlar fonunda o da faktdır ki, 44 günlük İkinci Qarabağ müharibəsi Azərbaycan gənclərində torpaq, vətən sevgisinin nə qədər böyük olduğunu ortaya qoydu. Dövlət başçısı İlham Əliyevin "İrəli, Azərbaycan əsgəri!" çağırışına cavab verən gənclərimiz böyük ruh yüksəkliyi ilə silaha sarılaraq torpaqlarımızı işğaldan azad etdi, üçrəngli bayrağımızı dalğalandırdılar.

Azərbaycan əsgəri yazdığı yeni tarixlə xalqımızın qürurunu özünə qaytardı. Elə prezident İlham Əliyev bu müstəvidə gənclərin milli ruhda tərbiyəsinin prioritet xarakter daşıdığını bir daha diqqətə çatdırdı. Bütün bunlar Azərbaycana böyük dividendlər və nailiyyətlə qazandırır və qazandırmaqda da davam edir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**